Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Uşaq və gənclərin fiziki və mənəvi inkişafı**



# Azərbaycanda idmanla milli həmrəylik - "Qarabağ" zirvədə...

**Bu günlərdə Azərbaycanda idman həvəskarları böyük bir sevinc və coşqu yaşadı. Belə ki, UEFA Çempionlar Liqasının pley-off mərhələsində Macarıstanın "Ferentsvaroş" klubunu iki oyunun nəticəsinə əsasən üstələyən "Qarabağ" komandası Çempionlar Liqasının Liqa mərhələsinə yüksəlib. Azərbaycan prezidenti İlham Əliyev "Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib. Dövlət başçısı qeyd edib: "Azərbaycanın "Qarabağ" klubu UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanaraq futbol tariximizdə yeni bir səhifə yazdı! "Qarabağ" klubunun bütün komanda heyətini və azarkeşləri təbrik edirəm!". Bütün bunlar həm də idmana Azərbaycanda ən yüksək səviyyədə göstərilən diqqət və qayğının təzahürüdür.**

**"Qarabağ" futbol klubunun yeni uğurları bütün Azərbaycanı sevincə qərq etdi**

Qeyd edək ki, Azərbaycan rəhbərliyi idmanı yalnız fiziki fəaliyyət kimi deyil, həm də strateji bir sahə kimi qəbul edir. Xüsusən də prezident İlham Əliyev hələ 1997-ci ildən Milli Olimpiya Komitəsinin rəhbəri seçildikdən sonra ölkədə idmanın inkişafı istiqamətində sistemli tədbirlərin görülməsinə xüsusi diqqət ayırıb. Məhz bu ardıcıl siyasət nəticəsində idman bugünkü yüksək səviyyəsinə çatıb.

İdman siyasətinin əsas məqsədi gənclərin sağlam həyat tərzi sürməsi, kütləvi idmanın inkişafı, ölkənin beynəlxalq yarışlarda uğurla təmsil olunması və Azərbaycan idmançılarını dünya miqyasında tanıtmaqdır. "Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanması bu prosesdə öz sözünü deyir. Azərbaycanın U-19 millisinin baş məşqçisi Elxan Abdullayev Ağdam klubunun evdə məğlub olmasına baxmayaraq, Çempionlar Liqasının əsas mərhələsinə vəsiqə qazanmasının böyük uğur olduğunu bildirib: "Qurban Qurbanov və komandası üçün nəticə önəmli idi. Rəqib son dəqiqələrdə daha təhlükəli idi. Hazırda Azərbaycan xalqı qürur hissi yaşayır. Ölkəmizin təmsilçisinin Avropanın ən böyük klub turnirin əsas mərhələsində olması möhtəşəmdir".

Veteran futbolçu Liqa mərhələsində hansı komanda ilə qarşılaşmağın vacib olmadığını söyləyib: "Çünki orada olan bütün komandalar güclüdür. "Qarabağ"ın da onlarla üz-üzə gəlməsi və Bakıya gətirməsi fəxr olunacaq məqamdır". Onu da bildirək ki, futbol dünyanın ən populyar idman növü olmaqla yanaşı, Azərbaycanda da geniş kütlələr tərəfindən sevilən və izlənilən bir idman sahəsidir. Dövlətin idmana, xüsusilə futbola göstərdiyi diqqət və qayğı nəticəsində bu idman növü ölkəmizdə həm peşəkar, həm də kütləvi səviyyədə inkişaf etməkdədir. Futbolun inkişafı təkcə idman uğurlarına deyil, həm də gənclərin sağlam həyat tərzi sürməsinə, beynəlxalq əlaqələrin genişlənməsinə və milli birliyin möhkəmlənməsinə xidmət edir. Dövlət rəhbərliyi futbolu yalnız idman növü kimi deyil, həm də cəmiyyətin sosial həyatında mühüm rol oynayan bir sahə kimi dəyərləndirir. Son illərdə qəbul olunan dövlət proqramlarında futbolun inkişafına xüsusi yer ayrılıb, bu istiqamətdə maddi və təşkilati dəstək göstərilib. Futbolun inkişafı üçün əsas şərtlərdən biri müasir infrastrukturun mövcudluğudur. Azərbaycanda son 20 ildə bu sahədə böyük işlər görülüb. Bakı Olimpiya Stadionunun istifadəyə verilməsi, Tofiq Bəhramov adına Respublika Stadionunun yenidən qurulması, regionlarda yeni stadionların və futbol meydançalarının tikilməsi futbolçuların peşəkar şəkildə məşq etməsinə və beynəlxalq yarışların keçirilməsinə şərait yaradıb. Bundan əlavə, uşaq və gənclər üçün mini-futbol meydançalarının tikilməsi futbolun kütləviləşməsinə təkan verir. Demək olar ki, hər bir bölgədə gənclərin asudə vaxtlarını səmərəli keçirməsi üçün futbol meydançaları mövcuddur. Azərbaycan futbolunun gələcəyi üçün əsas prioritet uşaq futbolunun inkişafıdır. AFFA ilə dövlət qurumlarının birgə əməkdaşlığı nəticəsində müxtəlif futbol akademiyaları və məktəbləri yaradılmışdır. Bu akademiyalar gənc istedadların üzə çıxarılmasında mühüm rol oynayır. Dövlət tərəfindən maliyyələşdirilən layihələr, regionlarda keçirilən turnirlər və məktəblilər arasında təşkil olunan yarışlar futbolun geniş yayılmasına səbəb olur. Məktəblərdə futbol dərslərinin təşviqi və yerli klubların uşaq komandalarının gücləndirilməsi də diqqət mərkəzindədir. Dövlət qayğısı futbol klublarının fəaliyyətində də özünü göstərir. Son illərdə "Qarabağ" futbol klubu Avropa arenasında əldə etdiyi uğurlarla Azərbaycan futbolunun simasına çevrilib. Klubun ardıcıl olaraq UEFA Avropa Liqası və Çempionlar Liqasında çıxış etməsi dövlətin və AFFA-nın dəstəyinin real nəticəsidir. Digər klubların da inkişaf etməsi üçün müxtəlif layihələr həyata keçirilir, sponsorluq və maliyyə dəstəyi təmin olunur. Futbol təkcə idman deyil, həm də ictimai hadisədir. Dövlətin futbola qayğısı nəticəsində bu idman növü gənclər arasında milli həmrəyliyin gücləndirilməsinə xidmət edir. Milli komandanın hər bir oyunu xalqın böyük marağına səbəb olur, azarkeşlərin birliyi isə milli ruhu daha da yüksəldir.

**İdman ölkənin beynəlxalq imicinin möhkəmlənməsinə də böyük töhfələr verir**

İdmanın digər sahələrinə də diqqət yüksəkdir. Dövlətin idmana göstərdiyi qayğı öz nəticəsini beynəlxalq arenada da göstərir. Azərbaycan idmançıları olimpiadalarda, dünya və Avropa çempionatlarında böyük uğurlar qazanmışdır. Güləş, boks, cüdo, taekvondo kimi döyüş növlərində qazanılan medallar ölkəmizin idman sahəsində güclü potensiala malik olduğunu təsdiqləyir.

Azərbaycanda idman yalnız peşəkar səviyyədə deyil, həm də kütləvi şəkildə təşviq olunur. Məktəblərdə, universitetlərdə və müxtəlif təhsil müəssisələrində idman dərslərinin keyfiyyətinin artırılması, gənclərin müxtəlif idman növlərinə cəlb edilməsi istiqamətində tədbirlər görülür. "Sağlam gələcək" prinsipi dövlət siyasətinin əsas hədəflərindən biridir. İdman tədbirləri və marafonlar da kütləviliyi artırmaq məqsədi daşıyır. Bakı Marafonu, velosiped yarışları və digər sosial layihələr insanların fiziki fəallığını artırmaqla yanaşı, sağlam həyat tərzinin təbliğinə xidmət edir. İdman yalnız yarış meydanı ilə məhdudlaşmır, o həm də xalqları birləşdirən, dostluq və əməkdaşlığı təşviq edən bir vasitədir. Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq idman tədbirləri ölkəmizin dünyaya açıq, tolerant və qonaqpərvər olduğunu sübut edir. Bu tədbirlər vasitəsilə Azərbaycan mədəniyyətini, tarixini və dəyərlərini dünyaya tanıdır.Eyni zamanda idman uğurları xalqımızda milli həmrəylik hisslərini gücləndirir. İdmançılarımız beynəlxalq arenada qalib gəldikdə Azərbaycan bayrağının dalğalanması və himnimizin səslənməsi hər bir vətəndaşda qürur hissi yaradır. Bütün bunlar göstərir ki, Azərbaycanda idmana ən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Dövlət siyasətinin prioritet istiqamətlərindən biri olan idman həm ölkənin beynəlxalq imicinin möhkəmlənməsinə, həm də sağlam və güclü nəsillərin formalaşmasına xidmət edir. Azərbaycanın idman ölkəsi kimi nüfuz qazanması isə yalnız uğurların göstəricisi deyil, həm də gələcəyə inamın ifadəsidir.

***Tahir TAĞIYEV***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***